**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**023/274

**Bakı şəhəri** "30" may 2023-cü il

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu quş xəstəliyindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-cü il 10 may tarixli rəsmi məlumatına əsasən, Amerika Birləşmiş Ştatlarının (ABŞ) İllinoys (Illinois), Missuri (Missouri) və Virciniya (Virginia) ştatlarında qeydə alınmış yüksək patogen quş qripi (YPQQ) xəstəliyi aradan qaldırılıb.

Belə ki, qeyd olunan ştatlarda YPQQ xəstəliyinə görə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatmış və epizootik sağlamlıq statusu bərpa olunmuşdur.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəlikdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adları çəkilən inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, Agentliyin müvafiq qərarları ilə YPQQ xəstəliyinin baş verməsinə görə ABŞ-ın sözügedən ştatlarına tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1.** 2022-ci il 13 dekabr tarixli 072/247 nömrəli qərarla ABŞ-ın İllinoys ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 2022-ci il 21 dekabr tarixli 073/248 nömrəli qərarla ABŞ-ın Missuri ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 2023-cü il 6 fevral tarixli 005/256 nömrəli qərarla ABŞ-ın Virciniya ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**